

# Nuh və Böyük Daşqın


Müəllif: Edward Hughes
İllüstrasiya edən: Byron Unger; Lazarus
Tərcümə edən: Günay Karaağac
Uyğunlaşdıran: M. Maillot; Tammy S.



60 Hekayənin 3-cisi

**M1914.org**

**Bible for Children, PO Box 3, Winnipeg MB R3C 2G1 Canada**



Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.


Nuh və Böyük Daşqın

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Yaradılış 6-10

"Kəlamının açıqlanması nur saçır". Məzmur 119:130



Nuh Allaha ibadət edən adam idi. Digərləri isə Allaha nifrət və itaətsizlik edirdi.





Bir gün Allah heyrətləndirici bir şey dedi. Allah Nuha dedi: "Mən bu pozğunlaşmış dünyanı məhv edəcəyəm. Yalnız sənin ailən xilas olacaq".





Nuh və onun ailəsi daşqından sonra yeni başlanğıc tapdılar. Vaxt keçdikcə onun nəsli yer üzərində yenidən artdı. Yer üzərindəki bütün insanlar Nuhdan və onun övladlarından yarandı.



**Allah, Onun** günah adlandırdığı pis şeyləri etdiyimizi **bilir**. Günahın cəzası ölümdür.

**Allah bizi o qədər çox sevir** ki, O Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və bizim günahlarımıza görə cəzanı ödəmək üçün göndərdi. **İsa dirildi** və Göylərə getdi! İndi Allah bizim günahlarımızı bağışlaya bilər.

**Əgər sən öz günahlarından dönmək istəyirsənsə**, bunu Allaha de: Əziz Allah, mən inanıram ki, İsa mənim üçün öldü və indi yenidən yaşayır. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, indi mən yeni həyata malik ola və sonra Səninlə əbədiyyən yaşaya bilim. Sənin üçün və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin. Yəhya 3:16

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!**

Azerbaijan


Allah Nuha xəbərdarlıq etdi ki, böyük daşqın gələcək və yer üzünü basacaq. “Ağacdan gəmi düzəlt, sənin ailən və çoxlu heyvanlar üçün kifayət qədər böyük olsun”, deyə Allah Nuha əmr etdi. Allah Nuha dəqiq təlimatlar verdi. Nuh işə başladı!
3


Nuh gəmini nə üçün tikdiyini başa saldıqca, insanlar yəqin ki, onu ələ salırdılar.
O, həmçinin, insanlara Allah haqqında da danışırdı. Heç kim dinləmirdi.
4


Nuhun böyük imanı var idi. Baxmayaraq ki, əvvəl heç vaxt yağış yağmamışdı o, Allaha inandı. Tezliklə gəmi təchizatlarla dolmağa hazır idi.
5


İndi isə heyvanlar gəldilər. Allah bəzi cinslərdən yeddi, digərlərindən iki cüt gətirdi. Böyük və balaca quşlar, balaca və hündür çöl heyvanları gəmiyə gəldilər.
6


Bəlkə, Nuh heyvanları gəmiyə doldurduqca insanlar qışqıraraq onu təhqir edirdilər. Onlar Allaha qarşı günah işlətməyə davam edirdilər. Onlar gəmiyə daxil olmağı xahiş etmədilər.
7


Nəhayət, bütün heyvanlar və quşlar gəmiyə daxil oldular. Rəbb Nuha dedi: “Sən bütün ailənlə birgə gəmiyə gir”.
8


Nuh, onun arvadı, oğulları və gəlinləri birlikdə gəmiyə girdilər. Sonra Allah qapıları bağladı!
9


Sonra yağış yağdı. Qırx gün, qırx gecə yer üzündə daşqın oldu.
10


Su şəhərlər və kəndlər üzərinə töküldü. Yağış dayananda, hətta dağlar da suyun altında qalmışdı. Nəfəs alan bütün canlı varlıqların hamısı öldü.
11


Su çox yuxarı qalxdıqca, gəmi suyun üzündə üzməyə başladı. Ola bilsin ki, gəminin içi qaranlıq, bəlkə də kələ-kötürlü və yaxud da vahiməli idi. Lakin gəmi Nuhu daşqından qorudu.
12


Beş ay sürən daşqından sonra Allah yer üzərinə külək göndərdi. Yavaş-yavaş gəmi Ararat dağlarında dayandı. Su çəkilənə qədər Nuh daha qırx gün gəminin içində qaldı.
13


Nuh gəminin açıq pəncərəsindən qarğa və göyərçin buraxdı. Göyərçin qonmaq üçün rahat bir yer tapmadığına görə Nuhun yanına qayıtdı.
14


Bir həftə sonra Nuh yenidən göyərçini buraxdı. Sonrakı həftə Nuh yer üzərinin quru olduğunu bildi, çünki göyərçin geri qayıtmadı.
15


Allah Nuha dedi ki, artıq gəmidən çıxmaq vaxtıdır. Nuh və onun ailəsi birlikdə heyvanları gəmidən çıxartdılar.
16


Nuh yəqin ki, necə də minnətdar idi! O, qurbangah tikdi, onu və onun ailəsini dəhşətli daşqından xilas edən Allaha ibadət etdi.
17


Allah Nuha gözəl əhd verdi. İnsan günahını mühakimə etmək üçün O, yer üzərinə bir daha daşqın göndərməyəcək.
Allah Öz əhdini xatırlatmaq üçün gözəl bir əlamət qoydu. Göy qurşağı Allahın əhdinin əlaməti idi.
18